5 fevral / 2021

## QARABAĞ AZƏRBAYCANDIR

Qələbə günüdür — Odlar yurdumun,
Əsgər — zabitimin, cəmi — ordumun!
Ali Baş Komandan təbrik eylədi,
Xalqı təbrik edib, belə söylədi:-
Bayrağım Şuşada ucaldı bu gün,
Sevinsin qoy xalqım, türk dünyam bütün!
Düşmənlər xar oldu bu zəfərmizdən,
Əsil nəcabəti... olmayan bizdən!
Qalib ordumuza alqışlar olsun,
Şəhidlər məzarı — qoy nurla dolsun!
Bizimdir — Qarabağ, Azərbaycandır,
Turan elləri də, hamı bir candır!!!
Ədalət çalmışdır — öz zəfərini,
Eşitsin qoy dünya, deyim yenəmi..,
Tanıdıq dostu da, biz düşməni də,
Ən çətin məqamda biz — bir gəmidə!..
Qəhrəman oğullar görüm var olsun,
Döyüşdən qaçana görüm ar olsun!
Sözümə qüvvətdir mövcud — BƏYANAT,
Gəzək Qarabağı da, edək ziyarət.
Kəsilsin erməni izi — sorağı,
Kəsilsin Qafqazdan şeytan barmağı!
Gəlin sağollaşaq hələlik biz də,
Vətənmiz şad olsun!- deyiniz siz də!

## ALTMIŞIN MÜBARƏK... GÖRÜŞƏK YÜZDƏ

*Dostum,qardaşım Manaf Əliyevin*
*altımış illik yubileyinə*

İllərin dizini qatlayıb-gəldin,
Altmışın mübarək, görüşək yüzdə!
İlləri mərdliklə adlayıb-gəldin,
Həyat mübarizə, döyüşək...sözdə.
Dünyaya göz açdın Hacıqabulda,
Qarasu məskanın-məkanın oldu.
Önündə baş əydi «Rast»da, «Zabul»da,
Neftçi peşəsi də-təkanın oldu!
Çıxdı qismətinə gözəl Gülbacın,
Ad-sanın, şərəfin, baş ucalığın.
Şairə bacımız oldu baş tacın,
Başlayır bu yaşdan-nur qocalığın!
Ağıllı-kamallı övladların var,
Hamsı şair təbli, əlində qələm.
Nəvələr adında, dövlətlərin var,
Onlara qurbandır-bu dünya-aləm!
Yazmağa sözüm çox, arzularım çox,
Yubleylər qey edək, aranda-düzdə.
Səni təbrik üçün yazılarım çox,
Altmışın mübarək, görüşək yüzdə!

**Hacı Zaməddin ZIYADOĞLU.**